AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

*Əlyazması hüququnda*

**ƏLİMİRZƏYEV ALLAHVERDİ NÜSİ OĞLU**

# ERKƏN ELAM CƏMİYYƏTİ PİKTOQRAFİK MƏTNLƏRDƏ (E.Ə. III MINILLIK)

**İxtisas: 55 03.01 – Ümumi tarix**
**İxtisas: 55 05.01 – Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI-2013**

***Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın qədim tarixi» şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:**
*Tarix üzrə elmlər doktoru* **K.H.Əliyev**

**Rəsmi opponentlər**
*AMEA-nın müxbir üzvü,*
*Tarix üzrə elmlər doktoru, professor* **V.H.Əliyev**

*AMEA-nın müxbir üzvü,*
*Tarix üzrə elmlər doktoru, professor* **İ.A.Babayev**

**Aparıcı təşkilat**: Bakı Dövlət Universitetinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrası

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində 55 03.01 – «Ümumi tarix» və 55 03.02 – «Vətən tarixi» ixtisasları üzrə fəaliyyət göstərən tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 saylı Dissertasiya Şurasının «_29_» _01__ 2014-cü il tarixli iclasında saat __ -da keçiriləcəkdir.

Ünvan: Az. 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «___»________ 2013-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
tarix üzrə fəlsəfə doktoru: **C.Ə.BƏHRAMOV**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Elam bəşər sivilizasiyasının ilkin ocaqlarından və müxtəlif təbəqələrə bölünmüş cəmiyyətin meydana gəldiyi mərkəzlərdən biri olmuşdur. Orijinallığı ilə diqqət çəkən Elam sivilizasiyası e.ə. IV minillikdən başlayaraq Zaqros və Kerman sıra dağları arasında və Həmədandan cənuba doğru uzanan ovalıq əraziləri əhatə edirdi. Faktiki olaraq həmin ərazinin yazılı tarixinin erkən mərhələsi Elamdan başlayır. Karun və Kerha çayları arasındakı münbit düzənlik antik dövrdə Suziana, Xuzistandakı dağlıq massiv isə Elimaida adlanırdı. Dəclə və Şətt-ül Ərəb çayları Elamı İkiçayarasından, Kerman dağ silsiləsi isə Dəşti-Lüt səhrasından ayırırdı. Bu geniş ərazidə artıq e.ə. VIII minilliyin sonlarından əkinçi-maldar tayfalar məskunlaşır. Qonşu xalqlar bu ərazini «Uca yer», «Yüksək ölkə» (şumer dilində Nim, akkad dilində Elamtu, qədim fars dilində Uvca) adlandırırdılar. Tarix elmində istifadə olunan «Elam» termini «Tövrat»dan götürülmüşdür.

Elamlılar e.ə. III minilliyin I yarısında İran dağlıq yaylasının müxtəlif yerlərində siyasi birliklərini yaratmaqla qonşu regionlara vaxtaşırı hərbi yürüşlər edirdilər. Özünəməxsusluğu ilə seçilən protoelam mədəniyyətinin və arxaik yazı nümunələrinin geniş arealda təmsil olunması qonşu ölkələrlə olan mədəni-iqtisadi əlaqələrdən xəbər verir.

Elam bütün aspektlərdən maraq doğura biləcək ölkədir. Elamın maddi mədəniyyəti, siyasi tarixi, sosial-iqtisadi münasibətləri, əhalisinin etnik mənsubiyyəti bu gün elmi ictimaiyyəti düşündürən problemlərdəndir. Erkən Elam cəmiyyətinin müxtəlif sahələri Qərb alimlərinin əsərlərində qismən işıqlandırılsa da, xüsusi tədqiqat mövzusu kimi heç vaxt öyrənilməyib. Halbuki problemin məhz bu konteksdə tədqiqi bir neçə baxımdan aktual görünür.

1. Elamlıların yaratdıqları irili-xırdalı dövlətlərin tarixi təxminən 2500 illik dövrü əhatə edir. Onlar bəşər tarixində uzunömürlü dövlətçilik ənənələrinə malik xalqlardan biri olmuşlar. Təqdim olunan dissertasiyada Elam cəmiyyətində ictimai-siyasi münasibətlərin və dövlətçilik ənənələrinin necə formalaşdığını izləmək imkanı yaranır. Elamlılar möhtəşəm Şumer sivilizasiyasının yaranmasının və intibahının şahidləri olmaqla bərabər, bu sivilizasiyanın süqutunu təmin edən qüvvə olmuşlar.
2. Mövzunun tədqiqi zamanı mühüm yazılı mənbələrdən olan yerli piktroqrafik sənədlərin cəlb olunması imkanı yaranır. Bu orijinal epiqrafiya nümunələrinin sirrinin açılması istiqamətindəki araşdır-

malar sosial-iqtisadi münasibətlərin səviyyəsi barədə təsəvvür yaradır.

3. E.ə. III minilliyin sonlarında Elamın siyasi həyatında Azərbaycanın qədim sakinləri–Urmiya gölü hövzəsində məskunlaşan quti tayfaları ilə olan münasibətlər ön plana çıxır. Şumer-Akkad kitabələrindəki məlumatların təhlili Avan şəhər-dövləti və Qutium ölkəsində siyasi hakimiyyətə nəzarət uğrunda tərəflər arasında baş verən münaqişələri yeni rakursdan izləməyə və beləliklə də indiyədək tədqiq olunmamış Elam-Quti münasibətləri barədə fikir söyləməyə imkan verir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiq olunan problemin xronoloji çərçivəsi əsasən e.ə. III minilliyi əhatə edir. Elamın tarixi torpaqlarında ilk yaşayış məskənlərinin və təsərrüfat fəaliyyəti ilə bağlı strukturların yaranma proseslərini daha dərindən izləmək üçün e.ə. VIII-IV minilliklərin mədəni təbəqələrinə də nüfuz edilmişdir.

**Mövzunun öyrənilmə səviyyəsi**. Elam tarixinin erkən dövrlərinin tədqiqi iki istiqamətdə aparılır: arxeoloji qazıntılar və yazılı mənbələr. Xuzistanda–Elam sivilizasiyasının beşiyində ilk sistemli arxeoloji qazıntılar 1897-ci ildən başlanır. J.de Morqanın rəhbərliyi ilə Fransa Arxeoloji Missiyasının Suzda (müasir Şuş şəhəri) apardığı qazıntılar elmə məlum olmayan özünəməxsus arxaik mədəniyyətin mövcudluğunu üzə çıxartdı. Şəhərin iki təbii təpəliyində və şəhər ətrafındakı qəbiristanlıqda aparılan qazıntılardan aşkara çıxarılan tikili qalıqları və zəngin maddi mədəniyyət nümunələri (boyalı saxsı qablar, metal əşyalar, möhürlər, piktroqrafik mətnli lövhəciklər və s.) Ön Asiyada orijinallığı ilə fərqlənən yeni sivilizasiyanın formalaşdığından xəbər verirdi.

Eyni mədəniyyətin nümunələri 1903-cü ildə E.Qotye və C.Lampr tərəfindən Deh-Luran yaylasında (Təpə-Mussian, Təpə-Xəzinə, Təpə-Əli-abad) da aşkara çıxarıldı.

1923-1928-ci illərdə E.Herzfeldin Persepolda, 1932-ci ildə A.Lanqsdorfun Təli-Bakunda (Fars vilayəti), 1933-1937-ci illərdə R.Girşmanın Təpə-Sialkda apardığı qazıntılar nəinki protoelam, hətta daha qədim mədəniyyətlərin izlərini üzə çıxartdı.

1930-1938-ci illər ərzində L.Le Bretonun Cəfərabad, Covi Bəndibal və Buhallandakı qazıntıları Karun və Kerha çayları vadisində Suzdan da qədim yaşayış məskənlərinin olduğunu müəyyənləşdirdi. Bu tədqiqatlar Suziananın arxeoloji stratiqrafiyasını aydınlaşdırmağa imkan verdi.

1965-1975-ci illərdə Elam əraziləri son dəfə iri miqyaslı arxeoloji araşdırmalara cəlb olundu. ABŞ arxeoloqları K.Flanneri və F.Hol Deh-Luran yaylasında apardıqları qazıntılarda Elam torpaqlarında ən qədim

əkinçilik ocağını aşkara çıxartdılar. U.Samnerin Təli - Məliandakı (Fars vilayəti) qazıntıları onu Elam şəhəri Anşan ilə eyniləşdirməyə imkan verdi. K.Lamberq-Karlovskinin Təpə-Yahyada (Kerman vilayəti), C.Kaldvelin Təli-İblisdəki qazıntılarından protoelam dövrünə aid materiallar əldə olundu.

Eyni vaxtda İtaliya arxeoloqları M.Tozi və M.Piperno Şəhri-Soxtada (Seistan vilayəti), İran Arxeoloji Mərkəzindən isə Ə.Hakimi Şahdadda (Xəbis yaxınlığında) qazıntılar apararaq yeni mərkəzlər aşkara çıxartdılar. C.Perronun rəhbərliyi ilə Fransa Arxeoloji Missiyası Suzdakı qazıntıların miqyasını genişləndirməklə mədəni təbəqələrin stratiqrafiyasını dəqiqləşdirdi. Hazırda protoelam mərkəzlərinin mədəni təbəqələrinin dövrü Suzun son stratiqrafiyasına əsasən müəyyənləşdirilir.[1]

Elamın erkən tarixinin tədqiqində ikinci istiqamət yazılı qaynaqlara əsaslanır. Bu qaynaqların əksəriyyəti şumer və akkad dillərində tərtib olunduğundan onların məlumatları əvvəllər ikiçayarasının siyasi tarixinin öyrənilməsinə cəlb olunurdu. İlk dəfə C.Kameron bu məlumatları sistemli şəkildə Elam tarixinin tədqiqinə cəlb etməklə onun siyasi inkişafının əsas mərhələlərini işıqlandıra bildi.[2] Elam tarixinin qədim dövrünün siyasi-iqtisadi tarixi, əhalisinin dini dünyagörüşü, yazı sistemlərinin inkişafı, Elam dilinin qrammatik xüsusiyyətləri daha geniş material əsasında V.Hins,[3] Y.Yusifov,[4] E.Reiner,[5] D.McAlpin[6] və digərlərinin tədqiqat obyektinə çevrildi.

**Tədqiqatın mənbə bazası.** Mövzunun tədqiqi geniş mənbə bazasına əsaslanır. İstifadə olunan arxeoloji məlumatlar Qərb arxeoloqlarının Elamın tarixi vilayətlərində apardıqları qazıntıların hesabatları əsasında araşdırılır.

Dissertasiyanın yazılmasında daha çox yazılı mənbələrə istinad olunub. Bu mənbələrin rəngarəngliyi nəinki onların müxtəlif dildə, hətta fərqli

---

[1] İran dağlıq yaylasında aparılan arxeoloji qazıntıların tarixinə dair bax: Carter E., Stolper M. Elam: Surveys of Political history and archaeology. London, 1984, 103-278; Potts D.T. The Archaeology of Elam. Formation and Transformation of an ancient Iranian state. Cambridge. University press. 1999, p. 46-84.

[2] Cameron G.G. History of Early Iran. Chicago, 1936, pp. 22-45.

[3] Hinz W. Persia C. 2400-1800 B.C.// Cambridge Ancient History, vol I, ch. XXIII, pp. 3-43; Хинц В. Государство Элам. М., 1977, 19-82.

[4] Юсифов Ю. Элам. Социально-экономическая история. М., 1968, 42-62.

[5] Reiner E: The Elamite Language. Handbuch der Orientalistik. Leiden, 1969, pp. 54-118.

[6] Mc Alpin D. Proto-Elamo–Dravidian. Philadelphia, 1981, 56-148.

qrafikada yazıldığı ilə səciyyələnir. Elam cəmiyyətinin e.ə. III minillikdəki sosial-iqtisadi həyatının tədqiqində ən önəmli mənbə yerli piktroqrafik mətnlərdir. Onların ümumi sayı 1600-dən artıqdır. Bu mətnlərin 100 illik tədqiqi ərzində əldə olunmuş nəticələr qənaətbəxş sayılmır. Rəqəmlər istisna olmaqla digər işarələrin mənası açılmadığından piktoqrafik mətnlərin məzmunu müəyyənləşməmişdir.

Suzdan tapılan piktroqrafik mətnlər müxtəlif dövrlərdə V.Şeyl,[1] R.de Mekkenem [2] və F.Vala [3] tərəfindən dərc olunmuşdur. Sonralar Qadın-Təpədən 43[4], Sialkdan 22,[5] Təli-Məliandan 32,[6] Təpə-Yahyadan 27[7] analoji mətn fraqmentləri aşkar olundu. Bir neçə fraqment Təli-Xəzirdən[8] və Çoğa-Mişdən [9] da tapılıb. 2005-2007-ci illərdə İran arxeoloqları Ceroftdan

---

[1] Scheil V. Documents en écriture proto-élamites. //Mémoires de la Délégation de Perse. T. VI. Paris, 1905, pp. 57-128; Scheil V. Textes de Comptabilite proto – élamites (nouvelle séries). // Mémoires de la Mission Archéologique de Perse. T. XVII. Paris, 1923, pp. 1-68, planches 1-LIX; Scheil V. Textes de camptabilite proto-élamites (troisieme série). // Mémoires de la Mission Archéologique de Perse. T. XXVI. Paris, 1935, pp. 1-14, planches I-LXI.

[2] Mecquenem R.de. Épigraphie Proto-élamite. // Mémoires de la Mission Archéologique en Iran. T. XXXI. Paris, 1949, pp. 5-150.

[3] Vallat F. Les documents épigraphiques de l'Acropole (1969-1971). // Cahiers de la Délégation archéologique francaise en Iran. T. I. 1971, pp. 235-245; Vallat F. Les tablettes Proto-élamites de l'Acropole (compagne 1972). // Cahiers de la Délégation archéologique Francaise en Iran. T. III. 1973, pp. 93-103; Vallat F. Le matérial épigraphique de couches 18 a 14 de l'Acropole. // Paléorient. T. 4. 1978, pp. 193-195.

[4] Weiss H., Young C. The Merchants of Susa: Plateau-Lowland Relations in the late Fourth Mellennium B.C. // Iran. Vol. XIII. 1975, pp. 8-11.

[5] Ghirschman R. Fouilles de Tépé-Sialk. Vol. I. Paris, 1938, 65-68, pl., XCIII.

[6] Stolper M. Proto-Elamite Texts from Tall-i Malyan . // Kadmos. №24, 1985, pp. 1-12.

[7] Lamberg-Karlowsky C.C. The Proto-Elamite Settlement at Tepe Yahya. // Iran. Vol. 9. 1971, figs. 1:1, 1:A; Lamberg-Karlowsky C.C. An Early City in Iran. // Scientific American. Vol. 224, №6, 1971, pp. 106-108.

[8] Le Brun A. Suse, chantier Acropole I Récherches stratigraphique a l' Acropole de Suse (1969-1971). // Cahiers de la Délégation archéologique Francaise en Iran. T. I. 1971, figs. 43:4, 44:20.

[9] Porada E. Iranian Art and Archaeology: A Report of the Fifth International Congress 1968. // Archaeology. Vol. 22, 1969, p. 58.

(Kerman vilayəti)4,[1] Təpə – Özbəkidən (Tehrandan 75 km qərbdə) 1[2] ədəd, Təpə – Sofalindən (Rey yaxınlığında) isə 11 ədəd[3] uçot sənədinin tapılması barədə məlumat yaymışlar.

Elamın piktoqrafik mətnlərinin tədqiqi ilə əvvəllər onları dərc edən alimlər məşğul olmuşlar. Sonralar bu mətnlər U.Braysın,[4] P.Mericinin[5] və A.Vaymanı[6] da diqqət mərkəzində olmuşdur. İlkin araşdırmalar piktoqrafik mətnlərin təsərrüfat sənədləri (əsasən ödəniş xarakterli hesabat–uçot əməliyyatları) olduğunu müəyyənləşdirdi. Lakin yalnız ölçü vahidlərini bildirən simvollar və ev heyvanlarını ifadə edən işarələrin mənası müəyyənləşdirildi.[7]

Elam piktroqrafiyasının sirrinin açılmasında Suzdan tapılan xətti mətnlərin rolu əvəzsizdir. Protoelam yazı sisteminin son mərhələsini təşkil edən bu tip sənədlərin ümumi sayı 30-a yaxındır və onları şərti olaraq latın hərfləri ilə işarələyirlər. Bunların 19-u («A»-«İ», «$H_2$»-«R» mətnləri) Suzdan tapılmışdır. Daş və gil əşyalar üzərində həkk olunmuş bu mətnlər hazırda Luvr muzeyində sərgilənir. Mərv – Dəştdən gümüş dolça üzərində («Q» mətni) və Şahdaddan saxsı qab üzərində də («S» mətni) analoji şriftlə

---

1 Covington R. What was Jiroft? / Saudi-Aramco World. September-Oktober, 2004, pp. 2-11; Basello G.R. The Tablets from Konar Sandal B (Jiroft) and its Pertinance to Elamite Studies. www. elamit. Net/elam/jiroft.pdf.

2 Madjidzadeh Y. Les fouilles d’Ozbaki (Iran) Campagnes 1998-2000. // Paléorient. Vol. 27, №1, 2001, pp. 141-145.

3 http: // tinyurl. Com/y 97 x tbd; groups. yahoo.com/group/indo…/13487.

4 Brice W. The Writing System of the Proto-Elamite Account Tablets of Susa. //Bulletin of the John Rylands Library. 45 №1, 1962, pp. 15-39.

5 Meriggi P. Altsumerische und protoelamische Bilderschrift. // Zeitschrift der Deutschen Morgenlandischen Gesellschaft. 1969, ss. 156-163.

6 Вайман А.О связи протоэламского письма с протошумерской. // Вестник древней истории. Москва, 1972, №3, с. 124-133; Вайман А. Арии в Иране – конец IV – начало III тыс. до. н.э. (Одешифровке протоэламской письменности). / Эрмитажные чтения. Памяти Б.Б.Пиотровского. Санкт-Петербург, 2001, с. 65-71.

7 Фриберг И. Числа и меры в древнейших письменных документах. // В мире науки. Scientific American. Издание на русском языке. Москва, 1984, №4, апрель, с. 58-66; Damerov P., Englund R. The Proto-Elamite texts from Tepe-Yahya. // American School of Prehistoric Research Bulletin. №39, 1989, pp. 32-78; Englund R. The state of Dechipherment of Proto-Elamite. S.Houston, ed., The First Writing: Script invention as history an progress. Cambridge, 2004, p. 100-149; Dahl J. Complex Graphemes in Proto-Elamite. //Cuneform Digital Library Journal. 2005, №3, pp. 1-15.

yazılmış mətnlər tapılmışdır.[1] Mərmər möhür üzərində 3 işarədən ibarət qısa yazı («V» mətni) aşkar olunmuşdur.[2] İnternet səhifələrində Londonun əntiq əşyalar mağazalarında üzəri xətti şriftlə yazılmış 4 metal qabın satışa çıxarılması barədə məlumat yer alır. Lakin onların tapıldığı şərait və yer barədə məlumat verilmir.[3] Bir mətn mis medalyon-boyunbağı üzərində həkk olunub.[4]

Suzdan tapılmış daş üzərindəki 11 xətti mətnin məzmunu V.Hins tərəfindən müəyyənləşdirilmişdir. O, mətnlərdə təsadüf olunan 60 işarənin (onların bəzilərinin piktoqrafik sənədlərdə də təsadüf olunur) oxunuşunu təyin etdi.[5]

Elamın erkən siyasi tarixinin tədqiqi yadelli yazılı qaynaqların - şumer-akkad mixi kitabələrinin məlumatları əsasında həyata keçirilir. Buraya tarixi hadisələrdən bəhs edən hökmdar mətnləri və təsərrüfat sənədləri daxildir.[6] E.ə. XXIII əsrin sonlarında akkad mixi yazı sistemi elam dilli mətnlərin qeydə alınmasına tətbiq olunmağa başlayır. Akkad hökmdarı Naram-Suenlə müqavilə bu sahədə yeganə mənbədir. Lakin fraqmentar olduğundan məzmunu tam anlanmır.[7]

**Tədqiqatın məqsəd və vəzifələri.** Problemin öyrənilməsində qarşıya qoyulan əsas məqsəd ilkin mənbələr və tarixi ədəbiyyat əsasında e.ə. III

---

[1] Vallat F. The most ancient scripts of Iran: the current situation. // World Archaeology. 1986, vol. XVII, №4, pp. 335-347; Englund R. Elam IV. Proto – Elamite. // Encyclopaedia Iranica. Vol VIII, 3, 1998, pp. 325-330.

[2] Clock A. ed., Minuscule Monuments of Ancient Art.Cataloque of Near Eastern Stamp and Cylinder Seals Collected by Virginia E.Bailey.., Madison. New York. 1988, № 466.

[3] http://www. Safarmer. Com/Indo-Eurasion/lin. Elam.pdf; complinq. ai. uiuc. edu/…Studies/ dahl.pdf.

[4] www. Artfire. Com/…/Necklace>Metal; pinterest. com/paimpont/elamite//.

[5] Hinz W. Zur Entzifferung Strichschrift. // Iranica Antiqua. 1962, T. 2, ss.1-21; Hinz W. Altiranische Funde und Forschungen. Berlin. 1969, ss. 11-44; Hinz W. Eine altelamische Tonkrug – Aufschrift vom Rande de Lut. // Archaologische Mitteilungen aus Iran. Neue Folge. 1971, №4, ss. 21-24; Hinz W. Problems of Linear Elamite. // Journal of Royal Asiatic Society, 1975, pp. 106-115.

[6] Scheil V., Legrain L. Textes Élamites-sémitiques (cinqueme série). // Mémores de la Mission Archéologie de Perse. T. XIV. Paris. 1913; Barton G.A. The Royal inscriptions of Sumer and Akkad. New Haven. 1929; Hirsch H. Die inschriften der Könige von Akkade. // Archiv für Orientforschung. 1963, №XX, ss. 1-82.

[7] Hinz W. Elams vertrag mit Naram-Sin von Akkade. // Zeitschrift für Assyriologie und vorderasiatische Archaologie. Neue Folge. 1967, №58, ss. 66-96.

minillikdə Elam cəmiyyətinin sosial-iqtisadi tarixinin öyrənilməsidir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün yerinə yetirilməsi zəruri olan aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir.

- Elamın tarixi coğrafiyasının və əhalisinin etnik mənşəyinin problemlərinə ümumi baxış;
- Elamın ən qədim dövrdən erkən sülalələr mərhələsinin sonuna qədərki tarixinin icmalını vermək;
- Cəmiyyətin sosial strukturunu və iqtisadi münasibətlərin səviyyəsini təyin etmək;
- Standart ölçü vahidlərinin tətbiqi əsasında təsərrüfat fəaliyyətinin qeydiyyatını araşdırmaq;
- Piktroqrafik yazı işarələrinin semantikasını açmaqla uçotun obyekt və subyektlərini təyin etmək;
- Elam piktroqrafiyasında fonetik oxunuşa malik işarələri müəyyənləşdirməklə yer və şəxs adlarının yazılışını araşdırmaq.

**Dissertasiya işinin metodoloji əsası.** Tədqiqat işi yazılı mənbələrin və arxeoloji materialın elmi sintezi şəklində əlaqələndirilməsi istiqamətində qurulmuşdur. Bundan əlavə, yazılı qaynaqların və elmi tədqiqat əsərlərinin obyektiv müqayisəli təhlili metoduna və bu təhlildən alınan nəticələrə üstünlük verilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın mühüm elmi yenilikləri aşağıdakılardan ibarətdir:

- Piktroqrafik mətnlər əsasında Azərbaycanın tarix elmində ilk dəfədir ki, e.ə. III minillikdə Elamın sosial-iqtisadi vəziyyəti tədqiq olunur;
- Azərbaycanın qədim tarixinin indiyədək araşdırılmamış səhifələri, Urmiya bölgəsi sakinləri olan qədim Azərbaycan tayfaları qutilərin elamlılarla siyasi münasibətləri mixi yazılı qaynaqlar əsasında öyrənilir.
- Protoelam uçot-hesabat sənədlərinin yazıldığı piktoqramların, ideoqrafik simvolların oxunuşu istiqamətində araşdırmalar aparılmışdır;
- Piktoqrafik və xətti mətnləri sinxron şəkildə öyrənməklə təsərrüfat sənədlərində işarə birləşmələrinin hecalı oxunuşu ilk dəfə bu dissertasiyada həyata keçirilir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəticələri qədim Elamın iqtisadi tarixinin problemlərinə işıq salmaqla məhdudlaşmır. Bu nəticələr bəşər sivilizasiyasının erkən mərhələsində sosial-iqtisadi münasibətlərin, siyasi qurumların və mədəni əlaqələrin formalaşmasına həsr olunan ümumiləşdirici əsərlərin və monoqrafiyaların yazılmasında istifadə oluna bilər. Bundan əlavə, qədim yazı sistemlərinin unudulmuş oxunuşunun bərpası üsullarını arayanlar və arxaik dillərin özəllikləri ilə

maraqlananlar da bu tədqiqatın nəticələrindən faydalana bilərlər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın qədim tarixi» şöbəsində yerinə yetirilmiş, şöbə əməkdaşlarının, habelə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu əməkdaşlarının birgə iştirakı ilə müzakirə edilərək müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyanın əsas müddəaları və nəticələri müəllifin mövzu ilə bağlı əsərlərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyaya tədqiqatın nəticələrini əks etdirən 36 cədvəl əlavə olunmuşdur.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiq olunan problemin aktuallığı, xronoloji çərçivəsi, mövzunun öyrənilmə səviyyəsi, elmi yeniliyi, elmi-praktik əhəmiyyəti haqqında məlumat verilir.

I fəsil **«Elam: ibtidai məskənlərdən ilk dövlət birləşmələrinə»** adlanır. Deh-Luranın (Baş-Mardeh, Əli-Koş, Təpə-Sarab, Təpə-Quran, Şoqa-Səfid, Təpə-Səbz), Suziananın (Cəfərabad, Covi) və Fars vilayətinin (Persepol, Təli-Muşki) neolit məskənlərində e.ə. VIII-V minilliklərdə biri digərini əvəzləyən mədəniyyət qalıqları aşkara çıxarılıb. Əhali əvvəllər gil-möhrə komalarda, sonralar isə döşəməsi əhənglə suvanmış və çiy kərpicdən tikilmiş düzbucaqlı quruluşa malik evlərdə yaşayırdılar. Ölülərini bükülmüş halda evlərin döşəməsi altında dəfn edirdilər. Saxsı qablar əl ilə hazırlanır və üzərinə müxtəlif təsvirlər vurulurdu. Balıqqulağı, mərmər, kirəc və firuzədən muncuq, bilərzik və digər bəzək əşyaları düzəldirdilər. Əmək alətləri və silahlar (çapacaq, təbərzin, toxa, ox ucluqları, sürtgəclər, oraq dişləri, toppuz başlığı və s.) dəvəgözündən (obsidian) və ya çay daşından hazırlanırdı. Təsərrüfat və məişətdə sümük əşyalardan da (oraq, biz, qolbaq, muncuq, düymə və s.) istifadə olunurdu. Daşdan, alebastrdan və bitumdan düzəldilmiş primitiv əşyalar, tünd boyalı və həndəsi naxışlı saxsı qablar bu dövr abidələri üçün səciyyəvidir. Silahlar, əmək alətləri və digər məişət əşyaları daşdan, sapand mərmiləri isə gildən hazırlanırdı.

E.ə. VI minilliyin əvvəllərində oturaq həyat tərzinin geniş miqyas alması əkinçilik və maldarlıq təsərrüfat tiplərinin inkişafına zəmin yaratmaqla yığım və ovçuluğun ikinci (yardımçı) mövqeyə keçməsinə səbəb oldu.

Təxminən e.ə. 4200-cü ildə 3 hektarlıq ərazini tutan iki təbii təpəlikdə Suz şəhərinin təməli qoyulur. Şəhərin ən qədim təbəqəsindən 14x7 m

ölçüsündə tikilinin ikipilləli kərpic özülü tapılmışdır. Sonrakı təbəqədən isə daha böyük ölçülərə malik digər bir tikilinin qalıqları aşkar olunmuşdur. Hər iki tikilini ibadət mərkəzi və ya məbədlə əlaqələndirirlər.[1]

«Suz A» adı ilə tanınan bu dövrdə şəhər 800 metrə qədər uzanmış və gil palçıq divarla əhatə olunmuşdur. Bu divar istehkam səddi olmaqdan əlavə şəhəri qəbiristanlıqdan ayırırdı. Təqribən 2000 məzardan ibarət olan qəbiristanlıq 750 $m^2$ ərazini əhatə edirdi. Qəbirlərə yüksək zövqlə işlənmiş naxışlı qab-qacaq, tilsim xüsusiyyətli amuletlər, lacivərd muncuqlar, silah və s. qoyurdular.[2]

Tapılan əşyalar arasında möhürlər xüsusi önəm kəsb edir. Üzəri naxışlarla örtülü dördkünc və düymə formalı möhürlər Suzun (261 ədəd), Bakunun (140 ədəd), Giyanın və Sialkın e.ə. IV minilliyin II yarısına aid edilən təbəqələrindən aşkarlanıb. Möhürlərin izləri ambarların qapılarının kənarında və saxsı qabların ağzının qapanmasında işlədilən parça qalıqları üzərində qeydə alınıb. İctimai strukturlara məxsus olan bu möhürlər əmlak və sosial bərabərsizliyin mövcudluğunun göstəricisi hesab olunur.[3]

Mühüm nailiyyətlərdən biri də misin tətbiqi ilə bağlı idi. Luristanda zəngin mis yataqlarının olması e.ə. VI minilliyin ortalarında Əli-Koş yaşayış məskənində ilk mis əşyaların məişət həyatında yer tutmasına səbəb oldu. Neolit məskənləri arasında mübadilə əlaqələri zəif olduğundan misi uzaq ərazilərə nəql etmək çətin idi. Bu üzdən Persepol və Təli-Bakunun e.ə. IV minilliyin birinci yarısına aid edilən təbəqələrindən mis əşyalar aşkar olunmayıb. Suzda və Sialkda isə o dövrdə mis əşyalar (kiçik ölçülü qablar, tava, güzgü, sancaq və s.) qəbirlərə qoyulurdu. Təli-Bakunda yalnız e.ə. IV minilliyin ikinci yarısında kənardan gətirilən misin emalı ilə məşğul olan emalatxanalar fəaliyyət göstərməyə başlayır.

E.ə. IV minilliyin ortalarında Suz şəhəri 13 hektar ərazini tutmaqla bütün İran dağlıq yaylasında meqapolisə çevrilir. Bu vaxt Suzianada 52 yaşayış məskəni mövcud idi və onlarda bütövlükdə 25.000 əhalinin

---

[1] Canal D. La haute terrasse de l' Acropole de Suse. // Paléorient. 1978, №4, pp. 169-176.

[2] Hole F. Cemetery or mass grave? Reflections on Susa I. / Mélanges Jean Perrot. Paris. 1990, pp. 1-13.

[3] Homes – Fredericq D. Cachets protohistoriques Mesopotamiennes et Susiane. // Iranica Antiqua. 1963. Vol.3, pp. 85-101.

yaşadığı güman olunur.[1] Suz «A» mədəniyyətinin mənşəyi bəlli deyil. Bu mədəniyyətin izlərinə Fars vilayətinin yaşayış məskənlərində də (Təli-Bakun, Təli-Teymuran, Təli-Şuqa, Təli-Muşki və s.), hətta Pakistanda (Şahi-Tump) rast gəlinib. Suzla müqayisədə bu məskənlər aşağı inkişaf pilləsində dururdular. Persepolun ətrafındakı məskənlərdə yalnız daş baltalar tapılıb. E.ə. IV minillikdə buranın sakinlərinə ox və kaman məlum deyildi.

E.ə. 3100-cu ildə Suziana düzənliyi şumerlilərin Uruk mədəniyyətinin təsir dairəsinə düşür. Şumer istilası təxminən 2 əsrə qədər davam edir və bu müddət ərzində Uruk mədəniyyəti üçün xarakterik olan nailiyyətlərin bir çoxu Suzianada yayılmağa başlayır. «Suz B» adı ilə tanınan bu mərhələ əvvəlki mərhələdən 7-11 metr qalınlığında kül təbəqə ilə ayrılır. Ehtimal olunur ki, «Suz A» mədəniyyəti yanğın nəticəsində məhv edilmiş və şəhər gəlmələr tərəfindən yenidən məskunlaşmışdır. Bu fikir dəfn mərasimi ilə bağlı adətlə də təsdiqlənir. Belə ki, daha qədim qəbirlərdə mərhum azacıq bükülmüş halda dəfn olunurdusa, bu zaman sağ çiyni üstə uzadılmış vəziyyətdə məzara qoyulurdu. Bəzi cəsədlər küp tabutlarda yerləşdirilirdi.[2] E.ə. 2900-cu ildə elam dilində danışan etnoslar Suzianada siyasi-iqtisadi hegemonluğa nail olaraq qonşu əraziləri də nəzarət altına almağa təşəbbüs göstərirlər. «Suz C» adı ilə tanınan bu mərhələdə (və ya «Protoelam» mərhələsi) Təpə-Sialkda, Təpə-Yahyada, Təli-İblisdə, Qodin-təpədə, Şahdadda, Təli-Xəzirdə və digər yaşayış yerlərində elamlılara məxsus şəhər mədəniyyətinin ilkin ocaqları formalaşmağa başlayır. Bunların arasında Dəşti-Bayda düzündə müasir Təli-Məlianın ərazisində yerləşən Anşan daha çox diqqəti cəlb edir. Suzda olduğu kimi, burada da şəhər iki təbii təpəlikdə yerləşirdi. Uzun müdafiə səddi ilə əhatələnən şəhər e.ə. III minilliyin ortalarında təxminən 50 ha ərazini tuturdu. Anşan əhalinin ətraf məskənləri tərk edərək buraya axını nəticəsində genişlənirdi.

Elam yazılı qaynaqlarda ilk dəfə arxaik Şumer mətnlərində (e.ə. XXVIII əsr) NİM və ya NİM-Kİ («uca yer») ideoqramları vasitəsi ilə qadın qulların uçotu zamanı xatırlanır. Elamın erkən siyasi tarixi Şumerin Kiş, Uruk, Ur və digər şəhər-dövlətləri ilə sıx bağlı idi. Erkən sülalələr dövründə Elamın ərazisində bir neçə dövlət qurumu (Marhaşi, Simaşki, Avan,

---

[1] Johnson G. Local Exchange and Early State Development in Southwestern Iran. University of Michigan Museum of Anthropology. Anthropological Papers. Ann Arbor. 1973, №51, pp. 101-143.

[2] Gunaltay S. Yakın Şark: Elam ve Mesopotamya. Ankara, 1987, s.132, 144, 147; Hole F. Cemetery.., пп. 4-8.

Ansan, Huhnur, Zabu və s.) mövcud idi. Bunlardan Anşan müasir Təli-Məlianla, Avan isə Qodin-Təpə ilə eyniləşdirilir. Marhaşini (və ya Barahşe) Poşte-Kuh dağlıq yaylasında, Huhnuru isə Deh-Luranda lokalizə etmək olar. Zabu (və ya Zabua, Sabum) e.ə. I minilliyin assur kitabələrində Mannanın qonşuluğundakı lullubilərin ölkəsi Zamuaya müvafiqdir. Simaşkinin Həmədan ətrafında yerləşdiyi ehtimal olunsa da, şumer sənədlərinin birində bu çarlığın ərazisi «Yuxarı dənizə» (Urmiya gölü) qədər uzandığı göstərilir.[1] Mixi qaynaqlarda xatırlanan 170 şəxs adının təhlilindən aydın olur ki, bu vilayətlərdə elamlılarla yanaşı lullubilər, qutilər və «su» adı ilə tanınan tayfalar (Simaşkidə) məskunlaşmışlar. Suzianada şumerlilər və akkadlılar (şərqi samilər) da qeydə alınıb.

Elam güclü siyasi qüvvə olmaqla Şumerin şəhər-dövlətləri üçün böyük təhlükə mənbəyi idi. Elamlılar üzərində qazanılan hər hansı bir qələbə mühüm tarixi hadisə kimi dəyərləndirilir və salnamələrə həkk olunurdu. Şumer hökmdar siyahılarından aydın olur ki, I Uruk sülaləsinin banisi Meskiaqqaşer (e.ə. XXVIII əsrin əvvəlləri) İran körfəzi sahillərindəki Elam ərazilərinə hərbi yürüş etmişdir. Bu sülalənin nümayəndələrindən Gilqameşin Zabudakı Hurrum meşələrindən sidr ağacı gətirməsi eposlarda əks olunmuşdur. Onun müasiri Kiş hökmdarı Enmebaraqesi Elamı məğlub etmişdir.

E.ə. III minilliyin ortalarında Elamda siyasi liderlik əsası Peli tərəfindən qoyulan Avan şəhərinin sülaləsinə məxsus idi. Tarixi ənənəyə görə bu sülalənin ilk üç nümayəndəsi (Peli, Taar, Ukkutahiş) I Ur sülaləsini devirdikdən sonra təxminən yarım əsr Şumerdə hökmranlıq etmişlər. Kiş şəhərinin hökmdarı Ennail Avan sülaləsinin çarlarının Şumerdə ağalığına son qoymuşdur.

E.ə. XXV əsrin sonunda elamlılar Şumerin Laqaş şəhər - dövlətinə hərbi səfər təşkil edirlər. Müharibənin birinci mərhələsində Laqaş hökmdarı Eannatum koalisiya qüvvələrinə ağır zərbə endirir. Hərbi əməliyyatların növbəti mərhələsi Elamın ərazisində baş verir və Suz, Adamdun, Huhnur şəhərlərinin dağıdılması ilə başa çatır. Bu ağır məğlubiyyətə baxmayaraq elam dəstələri ara-sıra Laqaş ətrafındakı məskənlərə yürüşlərini davam etdirirdilər. Laqaş hökmdarı Uruinimginaya (e.ə. XXIV əsrin sonları) ünvanlanan bir məktubda 600 elamlıdan ibarət olan dəstənin Guaba adlanan məntəqəyə hücumu xatırlanır. Bu hücum E-Ninmar məbədinin sərəncamında olan mühafizə dəstəsi tərəfindən dəf edilmişdir.[2]

---

[1] Potts D.T. The archaeology.., p. 141.
[2] Potts D.T. The Archaeology.., п. 90.

Akkad sülaləsinin hakimiyyəti dönəmində elamlıların Şumer şəhərlərinə basqınlarının qarşısı alınır. Bu sülalənin nümayəndələri (I Sarqon, Rimuş, Maniştusu) Elam vilayətlərinə vaxtaşırı hərbi yürüşlər etməklə Suziananı təsir dairəsində saxlamağa nail olurlar. Suzun baş kahini Eşba itaət rəmzi olaraq Maniştusunun heykəllərini tanrı Narundenin məbədində yerləşdirmişdir. Siyasi asıllığa baxmayaraq Suziananın təsərrüfat həyatında böyük canlanma müşahidə olunur və bütün bunlar akkad dilində tərtib olunmuş hesabat sənədlərində əksini tapır.

E.ə. XXIII əsrin sonlarında Azərbaycanın cənubunda, Urmiya gölü hövzəsində məskunlaşan quti və lullubi tayfalarının hərbi fəallığının artması ilə Akkad və Elam çarlıqları üçün ciddi təhlükə yaranır. Qutilərin ilk çarı İhtaa (və ya Hita) Avan şəhərini işğal etməklə Luristanı elamlıların siyasi təsirindən azad edir, Dəclə-Fərat vadisinin mərkəzindəki məskənləri nəzarət altına alır. Urmiya bölgəsi tayfalarının cənuba yürüşünün qarşısını almaq və ölkəsini talandan qorumaq üçün Akkad hökmdarı Naram-Suen ömrünün sonlarında vassalı olan Suz şəhərinin baş kahini Kutik-İnşuşinakla (akkaddilli kitabələrdə Puzur-İnşuşinak) dostluq və qarşılıqlı əməkdaşlıq haqqında müqavilə bağlayır. Müqavilənin akkad dilindəki mətni tapılmayıb. Fraqmentar vəziyyətdə olan elamdilli mətndə Kutik-İnşuşinak 40-a yaxın tanırının «şahidliyində» Akkad dövləti ilə olan dostluq münasibətlərinə sadiq qalacağını bəyan edir. Müqaviləyə sadiq müttəfiq kimi Kutik-İnşuşinak quti, lullubi, su və kaşu tayfalarının məskunlaşdığı Urmiya bölgəsinə, Kiçik Zab və Diyala çaylarının yuxarı axarındakı ərazilərə hərbi yürüş təşkil edir. Qələbənin şərəfinə yazılmış kitabədə 80-dən artıq məskənin (Humurti, Lani, Huhnuri, Kaşşen, Kutu, Hubuşna, Simaşki və s.) viran qoyulmasından və işğalından bəhs olunur.[1] Bu qələbədən sonra onun titullarına «Avanın və dünyanın 4 cinahının qüdrətli hökmdarı» ifadəsi əlavə olunur. Şumer hökmdar siyahılarında onun adı təhrif olunmuş formada – İnkişuş (əslində İnşuşinak tanrı adı) kimi Qutium çarları sırasında ikinci mövqedə verilib.[2] Bu hərbi əməliyyatdan sonra Simaşkidə siyasi hakimiyyət dəyişir, Luristan yenidən Elama birləşdirilir, Kutik-İnşuşinakın titullarına «Avanın və dünyanın dörd cinahının qüdrətli hökmdarı» ifadəsi əlavə olunur. Kutik-İnşuşinakın zamanında Elam qüdrətli dövlət kimi ictimai-siyasi yüksəlişini yaşayırdı. Quruculuq işləri geniş vüsət alır, məbədlər tikilir, Suz şəhərinə kanal çəkilir və bütün bu uğurlar akad və elamdilli kitabələrə həkk olunurdu. Lakin şimal

---

[1] Potts D.T. The Archaeology.., pp. 122-125.
[2] Jacobsen T. The Sumerian King List. Chicago. 1939, pp. 116-120, 202-208.

yürüşündən 7 il sonra quti və su tayfaları qüvvələrini səfərbər edib Kutik-İnşuşinakın qoşununa qalib gələrək Elamın böyük hissəsini işğal edirlər. Akkad çarı Şarkalişşari müttəfiqi Elamı bu əsarətdən qurtarmaq üçün qutilərə qarşı hərbi əməliyyatlar aparır. Lakin Nim vilayətinə və Simaşkiyə edilən yürüşlər, quti çarı Sarlaqabın əsir alınması müvəqqəti nailiyyət olduğundan qutilərin cənuba axınının qarşısını ala bilmir. Şarkalişarrinin ölümündən sonra Şumer şəhərləri də qutilər tərəfindən işğal olunur. Quti tayfa ittifaqının başçısı Lisir (şumer hökmdar siyahısında Lasir-ab) Avan şəhərini ələ keçirir və bu qələbənin şərəfinə Qəsri-Şirin yaxınlığında qaya üzərində yazı həkk etdirir.[1]

E.ə. 2109-cu ildə Şumerin Uruk şəhərinin hökmdarı Utuheqal quti çarı Tirikana, onun müttəfiqi Ur şəhərinin çarı Ur-Nammu isə Suzu idarə edən quti canişini Qutarlaya qarşı üsyan qaldırırlar. Qazanılan qələbədən sonra Şumer şəhərləri qutilərin işğalından azad olur, Suziana isə Şumerin III Ur sülaləsinin siyasi təsir dairəsinə düşür.

Təxminən e.ə. 2040-cı ildə elamlılar Simaşki çarlığında özlərinin yeni siyasi birliyini yaradırlar. Bu dövrdə 6 vilayətdən ibarət olan Simaşki çarlığı quti və lullubi məskənlərini də əhatə edərək Urmiya gölünə qədər geniş bir əraziyə malik idi. Gölün cənubunda yerləşən Həsənli kəndindən qazıntılar zamanı Simaşki sülaləsinin səkkizinci hökmdarı Tan-Ruhuraterin (e.ə. 1945-1925) iki toppuz başlığı tapılmışdır. Suzdan tapılan siyahıda əsası Kirnamme tərəfindən qoyulan bu sülalənin 12 hökmdarı sadalanır. İlk 4 hökmdarın zamanında III Ur sülaləsi ilə diplomatik səviyyədə münasibətlər qurulsa da, sonralar Şumer – Elam münasibətləri hərbi konfliktlərlə müşaiyət olunur. Bütün Suziana III Ur dövlətinin canişinləri tərəfindən idarə olunurdu. Simaşkidə isə hətta diplomatik nikahlar vasitəsi ilə olsa belə Şumerə loyal olan hakimiyyətin yaradılması cəhdləri uğursuzluqla nəticələnir. III Ur sülaləsinin yeritdiyi siyasətə qarşı artan narazılıqların qarşısını almaq üçün Avana, Adamduna, Huhnura və digər yerlərə yürüşlər təşkil olunur. Şumer şəhərlərində siyasi vəziyyətin gərginliyindən III Ur sülaləsinin çarı İbbi-Suenin Elama olan nəzarəti tamamilə heçə enir. Yaranmış əlverişli vəziyyətdən istifadə edən Elam çarı Hutrantemti Simaşkidəki tayfalar ilə ittifaqa girərək e.ə. 2003-cü ildə Ur şəhərinə yürüş edir, şəhəri dağıdır və Şumerin son hökmdarı İbbi-Sueni əsir götürür.

Dissertasiyanın II fəsli **«Siyasi-inzibati idarəçiliyin formalaşması»** adlanır. Elam bəşər sivilizasiyasının ilk quldar cəmiyyətlərindən sayılır.

[1] Herzfeld E. The Persian Empire. Wiesbaden. 1968, p.154.

E.ə. IV minilliyin II yarısından etibarən burada əmlak bərabərsizliyi və sinfi təbəqələşmə dərin kök salmağa başlayır. Bu dövrdə cəmiyyətin iqtisadi həyatında aparıcı rol kənd icmalarına məxsus idi. Sialkda, Təli-Bakunda. Persepolda və Suzda iri ailələrdən təşkil olunmuş icmalar formalaşmağa başlayır ki, bu da özünü çoxotaqlı evlərin tikilməsində biruzə verir. «Suz A» dövrünün qəbirlərindən tapılmış 60-a yaxın balta və 50 ədəd misdən düzəldilmiş disklər (onları adətən «güzgü» adlandırırlar) dəfn olunanların yüksək sosial ranga malik olduğuna işarə edir. Kənd icmaları tədricən zəifləyir, sosial-iqtisadi strukturlar şəhərlərdəki iri məbədlərdə cəmlənir. Suzdan tapılmış möhürlərin bir neçəsində keçi buynuzlu insan təsvir olunub. Əynində uzun və bəzəkli tuman olan bu personaj ilanların və xırda buynuzlu mal-qaranın əhatəsində təsvir olunur. «Heyvanların hamisi» kimi mənalandırılan bu personaj bəzən hökmdar kəcavəsinin yanında göstərilir.[1] E.ə. III minilliyin I yarısında ilk dövlət qurumlarının meydana gəlməsi ilə üç pilləli hakimiyyət sisteminin təşəkkülü nəzərə çarpır. Elamda ali hakimiyyət şaha (şumercə *Lugal*, akkadca *Šarru*, elamca *Zunkik)* məxsus idi. Şumer-akkad hökmdarlarından asılı olan vilayət başçıları canişin (şumercə *Gir. nita*, akkadca *Šakkanakku,* elamca *katri)* qismində fəaliyyət göstərirdilər. Hakimiyyətin üçüncü pilləsində kahin-hökmdarlar (şumercə *Ensi*, akkadca *iššiakku,* elamca *halmenik*) dururdu.

Elamın piktoqrafik mətnlərində təxminən 50 işarə məbəd təsərrüfatlarında çalışanların ixtisas və peşə fəaliyyətini (hesabdar, toxucu, əyan, suçu, işçilərin rəhbəri, məmur, dulusçu, çoban, quşçu, bənna, balıqçı, möhür düzəldən, bağban, rəncbər və s.) simvolizə edirdi. Müvafiq sahələrdə fəaliyyət göstərən zərif cinsin nümayəndələrini bildirərkən bu simvollar «qadın» işarəsinin daxilinə yazılırdı.

E.ə. IV minilliyin sonlarında Uruk mədəniyyətinin təsiri ilə Elamda məbəd, daha sonralar isə dövlətə məxsus təsərrüfat strukturları formalaşmağa başlayır. Şumerdən mənimsənilən mühüm nailiyyətlərdən biri təsərrüfat fəaliyyətinin qeydiyyatı ilə bağlı idi. Dövlətə xas olan idarəçilik üsulları, inzibati orqanlar və bürokratik aparatlar Suzda və onun ətrafındakı məskənlərdə aşkarlanmışdır. Bütün bunlar onu göstərir ki, idarəçilik, izafi məhsulun təyinatı üzrə bölgüsü, mədaxil-məxaric əməliyyatlarının uçotu və inzibati nəzarətlə məşğul olan məmur zümrəsi formalaşırdı. İlk uçot əməliyyatları daşdan və gildən düzəldilmiş silindr,

[1] Афанасьева В.К. Гильгамеш и Энкиду. Москва. 1979, рис. 5,6 a, 9, 19, 28 b, 30 a.

disk, konus, şar və s. formalı xırda fiqurlar vasitəsi ilə həyata keçirilirdi. Bu fiqurları gil «zərfin» içinə yerləşdirməklə mübadilə zamanı onların mühafizəsini təmin edirdilər. E.ə. 2900-cu ildən bu fiqurlar yazı işarələrinə, «zərflər» isə yazı lövhəciklərinə çevrilir. Əvvəllər primitiv lövhəciklərdə yalnız rəqəm və ədədlərlə bağlı simvollar qeyd olunurdu. Sonralar işarələrin sayı 400-ü keçdi. Müxtəlif formada kombinə etmək və yeni mürəkkəb işarələr yaratmaqla onların sayını bir neçə dəfə artırmaq mümkün oldu. Bu yazı sistemi təsviri və sxematik işarələrdən ibarət idi və onların vasitəsi ilə sadə əməliyyat tələb edən sənədlər tərtib olunurdu. Bu sənədlər əsasən sağdan sola yazılırdı; nadir hallarda bustrofedon tətbiq olunurdu, yəni bir sətir sağdan sola, digəri isə əks istiqamətdə yazılırdı.

Elamın piktoqrafik yazı sistemi yerli mənşəlidir və Suz şəhərində meydana gəlmişdir. Bu yazının bəzi işarələrinə dekor və ornament şəklində e.ə. V-IV minilliyin saxsı qablarında təsadüf olunur. Bu yazı sistemi yarandığı vaxtdan realist təsvirlərlə yanaşı sxematik işarələrlə zəngin idi. Dördkünc formalı gil lövhəciklərdə əvvəllər yalnız ədədlərlə bağlı simvollar («şahı barmağın» təsviri – «1», «kisik dairə» - «10») yazıldığından belə sənədləri «rəqəmli lövhəciklər» adlandırırlar. Bu lövhəciklərin bəzilərində dəliyin olması belə güman etməyə əsas verir ki, onları ip vasitəsi ilə mübadilə predmetlərinə (məsələn, yağ küpünə, şərab bardağına, un kisəsinə və s.) bağlayırdılar. Bu yolla predmetlərin kəmiyyəti bildirilirdi.

İzafi məhsulun və mübadiləyə cəlb olunan malların dəqiq uçotu, eləcə də digər təsərrüfat əməliyyatlarının qeydiyyatı hesabatların yazıda əks olunması prosesinin təkmilləşdirilməsini zəruri edirdi. Bu özünü ilk növbədə yeni işarələrin yaranmasında biruzə verir. Onların bir qismi uçota cəlb olunan əşyaları, digər qismi isə «ünvanları» bildirirdi. Bu işarələr vasitəsi ilə təsərrüfata daxil olan malların kim tərəfindən gətirildiyi və ya anbarlardan buraxılan məhsulların kimə ünvanlandığı göstərilirdi. Təyinatı göstərilən hesabat əməliyyatları əsasən 2 formada qeydə alınırdı.

1. Aparılan əməliyyatların sayından asılı olmayaraq hər dəfə kəmiyyətdən qabaq uçotun obyektini bildirən işarə yazılırdı.
2. Uçotun obyekti yalnız bir dəfə mətnin əvvəlində göstərilirdi, onun miqdarı isə fərqli ünvanlar üzrə sadalanırdı.

Rəqəm və ədədləri bildirən simvolların çoxluğu piktoqrafik sənədlərdə müxtəlif ölçü sistemlərinin və standart vahidlərin tətbiqindən xəbər verir. İşçilərin, ev heyvanlarının, məişət əşyalarının və digər predmetlərin miqdarı onluq say sisteminə əsaslanan ölçü simvolları ilə göstərilirdi. Həcm ölçü vahidləri ilə dənli bitkilərin və mayelərin miqdarı hesablanırdı. Digər

ölçü sistemini çəki vahidləri təşkil edirdi. Sahə ölçü vahidləri altmışlıq say sisteminə əsaslanırdı. Bütün ölçü sistemlərindəki metroloji vahidlər 15 rəqəm-simvolla yazılırdı. Ən böyük simvol «10.000», ən kiçiyi isə «1/120» ədədlərini bildirirdi. Kəmiyyəti ifadə edən ədədlər silsiləsində bu simvollar yazı istiqamətinə müvafiq olaraq sağdan sola «böyük simvoldan kiçik simvola doğru» prinsipi üzrə yerləşdirilirdi. Ölçü vahidlərinin əksəriyyətinin adı məlum deyil. E.ə. V əsrin təsərrüfat sənədlərindən məlum olur ki, elam leksikonunda dənli bitkilərin ölçü vahidləri *KURRİMA* (=10 litr), İ*RTİBA* (təxminən 3 litr) və maye ölçü vahidi *MARRİŠ* (=10 litr) terminlərindən istifadə olunurdu. Bunların hər üçünə də piktoqrafik sənədlərdə təsadüf olunur.

Məxaric sənədlərinin sonunda (lövhəciyin arxa tərəfində) qeydiyyatı aparılan məhsulların sayını bildirən ümumi yekun yazılırdı. İnformasiya lövhəciyin arxa tərəfini də əhatə etdikdə yekun $180^0$ fərqlə göstərilirdi.

Dissertasiyanın III fəsli **«Protoelam sənədlərində gündəlik həyatın və təsərrüfat fəaliyyətinin əksi»** adlanır. Arxeoloji qazıntılardan məlum oldu ki, e.ə. VII-VI minilliklərin neolit məskənlərində (Təpə-Asiab, Gənc-Dərə, Əli-Koş, Bas-Mardeh və s.) əhali nəsli quruluş mərhələsinə qədəm qoymuş və mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçmişdir. Buranın sakinlərinin əsas məşğuliyyəti davar saxlamaq idi. İri buynuzlu mal-qaranın əhliləşdirilməsinə dair ilk dəlillər Sialkdan və Təpə-Səbzdən (e.ə. VI minilliyin II yarısı) aşkarlanıb. E.ə. IV minilliyin saxsı qablarında quşların realist təsvirlərinə təsadüf olunur. Bu dövrdə münbit dağətəyi və düzənlik ərazilərdə suvarma əkinçiliyi də inkişaf etməyə başlayır. İstehsal təsərrüfatının inkişafı nəticəsində əkinçi-maldar tayfalar daha geniş ərazilərə yayılır, sadə mübadilə ilə məşğul olur, icmanın daxilində isə sosial-iqtisadi bərabərsizlik artırdı. E.ə. IV minilliyin I yarısında Sialkda və Suzda misdən geniş istifadə etməyə başlayırlar. İxtisaslaşmış sənətkarlar misdən müxtəlif əmək alətləri və məişət əşyaları (kərki, sancaq, biz, iynə, balta və s.) hazırlayırdılar. Sənət sahələrinin inkişafı şəhərlərin böyüməsinə zəmin yaradırdı. Yazıyaqədərki mərhələdə elamlıların gündəlik həyatı və məişət qayğıları barədə silindrik möhürlərdə kifayət qədər canlı səhnələrə təsadüf olunur. Maldarlıqla bağlı səhnələrdə personajlar xırda buynuzlu mal-qaranın əhatəsində təsvir olunurlar. Yalnız bir möhürdə yer şumlayan əkinçi təsvir olunub. Sənət sahələrindən daha çox dulusçuların və toxucuların əməyi əks olunub. Bir neçə möhürdə gəmiçiləri və bənnaları görmək olar.[1]

[1] Amiet P. Glyptique Susienne. T. I. Paris, 1972.

Piktoqrafik sənədlər müxtəlif təsərrüfatlarda qeydə alındıqlarından istehsal sahələri üzrə hesabatlar arasında fərqlər nəzərə çarpır.

Maldarlıqla bağlı sənədlərdə xırda buynuzlu heyvanların üstünlük təşkil etdiyini görürük. İri və xırda buynuzlu mal-qaranın hesabatı ayrı-ayrı sənədlərdə aparılırdı. Lövhəciklərdə qeydiyyatı aparılan heyvanların ümumi sayını göstərməklə yanaşı, onlardan alınan məhsulların da uçotu aparılırdı.

Xüsusi simvollarla heyvanların cinsi, yaş göstəriciləri, fiziki vəziyyəti, rəngi və s. göstərilirdi. Məsələn, açıq (və ya ağ) rəngli heyvanları bildirən işarələrin heç bir fərqləndirici əlaməti olmurdu. Tünd (və ya qara) rəngli davarı ifadə edərkən bu heyvanları bildirən işarələr ştrixlənirdi, yəni bir növ «qaralanırdı». Bəzi hallarda ev heyvanları və quşları üçün nəzərdə tutulan yemin də uçotu aparılırdı. Ev heyvanlarından daha çox keçi, heyvandarlıq məhsullarından isə süd, yağ və dəri qeydə alınıb. At və ulaqdan qoşqu heyvanı kimi istifadə olunurdu. Məsələn, sənədlərin birində 331 işlək ayğır qeydə alınıb.[1] Əhalinin məşğuliyyətində qoyun və keçi saxlamaq daha səmərəli idi. Sənədlərin birində 1200 baş keçi və 400 baş qoyun qeydə alınıb.[2] Bir şumer sənədində bildirilir ki, Adamdun şəhərinin baş kahini vassalı olduğu Ur şəhər-dövlətinə 2152 baş qoyun, 1414 baş keçi və 2324 baş çəpiş göndərmişdi.[3] Suzun piktoqrafik lövhəciklərinin birində 185, digərində isə 331 at qeydə alınıb.[4]

Aqrar münasibətlər qonşu Şumerdə mövcud olan səviyyədə idi. Torpaq fondu 3 qurumun – icmanın, məbədin və dövlətin mülkiyyətində idi. Əkin üçün yararlı sahələrin çox hissəsi məbəd və dövlət təsərrüfatlarında cəmlənmişdi. Təyinatına görə bu torpaqlar üç hissəyə bölünürdü. Torpağın bir hissəsindən əldə olunan gəlir məbədin (və ya sarayın) ehtiyaclarının ödənilməsinə yönəldilirdi. Digər bir hissə bu qurumlarda çalışanlara qulluq müqabilində verilirdi. Sonuncu hissə xırda sahələrə bölünərək icma üzvlərinə müddətli icarəyə verilirdi. Sonuncu halda verilən torpağı əkib-becərmək üçün icarədarlar lazımı vasitələrlə (qoşqu heyvanı, əmək alətləri, səplik toxum və s.) təmin olunurdular.

Təsərrüfat obyekti qismində torpaq bir neçə fərqli işarə vasitəsi ilə ifadə olunurdu və bu işarələr müxtəlif simvollarla kombinə oluna bilərdi.

---

[1] Scheil V. 1935, 120 сайлы лювщяъик.

[2] Scheil V. 1923, 275 saylı lövhəcik.

[3] Тюменев А.И. Государственное хозяйство древнего Шумера. Москва – Ленинград. 1956. с. 334.

[4] Scheil V. 1923, 105 və Scheil V. 1935, 120 saylı lövhəciklər.

Məsələn, «torpaq» və «keçi» ideoqramlarının kombinasiyası «otlaq», «torpaq» və «su» işarələrinin kombinasiyası isə «suvarılan sahə» anlamlarını verirdi. «Şumluq ərazi» anlamını ifadə etmək üçün «xışın» sxematik təsvirindən istifadə olunurdu. «Əkinçi» altıbucaqlı həndəsi fiquru xatırladan işarə ilə ifadə olunurdu. Onun daxili boşluğuna müxtəlif işarə və simvollar yazmaqla əkinçilərin fəaliyyət sahəsi dəqiqləşdirilir və bağlı olduqları təsərrüfat obyektləri göstərilirdi. Bu tip mürəkkəb işarələrin tədqiqi göstərir ki, əkinçilər yer şumlayır, əkin və biçinlə məşğul olur, qoşqu heyvanlarına qulluq edir, məhsul yığımında və təhvilində iştirak edirdilər.

Bir qrup sənəddə şumluq sahənin ölçülərindən sonra səpin üçün ayrılmış arpanın miqdarı göstərilmişdir. Belə «səpin təlimatlarına» əsasən Suzianada 1 ha sahəyə orta hesabla 33,6 litr toxumluq arpa səpilirdi.

Suzun piktroqrafik sənədlərinin birində qadın əkinçiyə 12,70 ha, digər bir sənəddə isə kişi əkinçiyə 129,8 ha. sahənin verilməsi rəsmiləşdirilib.[1]

Eyni vaxtda bir neçə şəxsə əkin sahəsinin ayrılması bir sənəddə də qeyd oluna bilərdi. Belə ki, bir sənəddə 9 nəfərə 70 hektara yaxın sahənin ayrılması qeydə alınıb. Bunların dördünə eyni ölçüdə (təxminən 5,4 ha), bir qadına isə 9 ha sahə ayrılır.[2]

Bəzi hallarda kollektiv icarəyə üstünlük verilirdi. Məsələn, bir sənəddə bir qadına 770 $m^2$, digər bir şəxsə isə 490 $m^2$ sahənin ayrılması qeyd olunub. Sənəd, ehtimal ki, birinci icarədar üçün nəzərdə tutulmuş 27,2 litr həcmində toxumluq arpanın verilməsi ilə tamamlanır.[3]

Elam piktroqrafiyasında 20-dən artıq işarə müxtəlif formalı qab-qacaqları ifadə edirdi. Onların daxili boşluğuna horizontal xətlər, xırda dairəciklər, rəqəm-simvollar və ərzaq məhsullarını bildirən işarələr yazılırdı. Bu tip kombinə olunmuş işarələr qabların dənli və ya maye formalı ərzaqla dolu olduğuna və onların tutumuna işarə edirdi. Bəzi qablar standart tutuma malik idi. Piktroqrafik mətnlərdə standart qabları ifadə edən işarələr maye formalı ərzaq məhsulunu bildirən işarədən sonra, dənli məhsullarla bağlı işarələrdən isə əvvəl yazılırdı. Qrafik ifadəsi mümkün olmayan ərzaq məhsullarının əksəriyyəti saxlandığı qabların sxematik təsviri ilə ifadə olunurdu. Bəzi qab-qacaq işarələrinin altında xırda ştrixlər çəkilirdi. Belə kombinasiya dəlikləri olan və doldurulmadan əvvəl xüsusi tıxaclarla

[1] Scheil V. 1935, 106 və 103 saylı lövhəciklər.
[2] Scheil V. 1935, 118 saylı lövhəcik.
[3] Scheil V. 1935, 73 saylı lövhəcik.

qapanın iri tutumlu saxsı qabların tətbiqindən xəbər verir. Bir neçə sənəddə saxsı qabların tara kimi qeydə alındığını görmək olar.[1] Lövhəciklərin birində isə dulusçuluqla məşğul olan 8 ölü qadın qeydə alınıb; onların təsviri «8» rəqəminə nəzərən $180^0$ fərqlə verilib.[2]

Şumerin təsərrüfat sənədlərində elammənşəli müxtəlif peşə sahibləri xatırlanır. Əsasən silah, pivə, çaxır və gəmi istehsalında çalışan bu ustalar gündəlik qida ilə təmin olunurdular. İşçilərin peşəkarlıq səviyyəsi, yaş həddi və cinsindən asılı olaraq onlara ayrılan ödəmələr dəyişirdi. Protoelam sənədlərindən aydın olur ki, peşəkar səviyyəli işçilərə ayrılan ödəmələr qadın və uşaqlara veriləndən 2-3 dəfə artıq olurdu. Ödənişlərlə bağlı hesabatlarda daha çox arpa, yağ və pivə xatırlanır. Araşdırmalar göstərir ki, hər üç məhsulun verilməsində ciddi fərqlər mövcud idi. Hətta arpa ödənişi yüksək olanların yağ və pivə ödənişləri gözlənildiyindən az olduğu hallarla rastlaşırıq. Normalar sabit olmadığından ödənişlərdəki dəyişiklər adi hal idi. Bu təchizatda vaxtaşırı baş verən müvəqqəti çətinliklər üzündən də olurdu. Protoelam cəmiyyətində sinfi təbəqələşmənin və sosial bərabər-sizliyin səviyyəsini müəyyənləşdirmək üçün piktroqrafik sənədlərdə xeyli məlumat vardır. Ödənişlərin «ünvanlar» üzrə göstərilən kəmiyyətlərindəki fərqlər bəzi hallarda onların sosial ranqını və cəmiyyətdəki mövqeyini göstərir. Məxsusi olaraq işçilərin uçotuna həsr olunmuş sənədlər azlıq təşkil edir. Əksər hallarda kişi və qadın işçilər ayrı-ayrı sənədlərdə qeydə alınırdı. Hər iki cinsdən olan uşaqlar yardımçı işlərə cəlb olunur və müxtəlif dəstələr üzrə qruplaşdırılırdılar. Məsələn 1 sənəddə 7 dəstə üzrə qruplaşdırılan 591 oğlan xatırlanır; ən böyük dəstəyə 147, ən kiçiyinə isə 44 uşaq daxil idi.[3] Təsərrüfatlarda qul əməyindən də istifadə olunurdu. «Qul» termini (elam dilində *Kir)* «1» və «yeriyən ayaqlar» işarələrinin kombinasiyasından yaranan liqaturla ifadə olunurdu.

Dissertasiyanın sonuncu, IV fəsli **«Elam piktoqrafiyasının inkişafı: ideoqrafik ifadə vasitələrindən hecalı yazı sisteminə keçid»** adlanır. Fəsil Elamın piktoqrafik və xətti mətnlərində təsadüf olunan hecalı işarə komplekslərinin filoloji təhlilinə həsr olunub. Piktoqrafik mətnlərdə fonetik yazılışın tətbiqi bir sıra amillərlə şərtlənir.

1. İdeoqrafik mətnlərdə işarələr adətən təyin olunmuş ardıcıllıqla yerləşdirilirdi. Bəzi hallarda bu ardıcıllığın pozulduğunun və işarələrin yerini dəyişdiyinin şahidi oluruq.

[1] Scheil V. 1923, 35, 107, 434 сайлы лювщяъикляр.
[2] Scheil V. 1923, 166 saylı lövhəcik.
[3] Scheil V. 1923, 45 saylı lövhəcik.

2. Adətən ideoqrafik yazılarda qonşu işarələr arasında semantik bağlılıq gözlənilirdi və belə hallarda işarələrdən biri digəri üçün təyin funksiyasını icra edirdi. Məsələn, «kirkirə» təsvirini «arpa» simvolunun qarşısında yazmaqla məhsulun formasını, yəni arpanın un halında olduğunu ifadə edirdilər. Bəzən qonşu işarələr arasında semantik bağlılıq nəzərə çarpmır. Məsələn, «qatır qulaqları» + «su»; «su» + «it»; «küp» + «quş» və s. işarələrdən qurulmuş komplekslərin izahı heç bir məntiqlə həllini tapmır. Belə hallarda işarələr arasında semantik əlaqənin gözlənilməsi şərt deyildi; məqsəd konkret hecalı yazılışı təmin etmək idi.
3. Piktroqrafik işarələrin bir qismi Kutik-İnşuşinakın zamanında hecalı yazılışlara tətbiq olunurdu. Onun xətti mətnlərində qeydə alınan fonetik oxunuşlu işarə birləşmələrinin bir neçəsinə piktroqrafik lövhəciklərdə də təsadüf olunur.

İşarənin fonetik oxunuşunun təyin olunmasında mühüm metodlardan biri onun qrafik eyniləşdirilməsidir, yəni təsvir etdiyi predmeti müəyyənləşdirməkdir. Əksər hallarda predmetlər sxematik cizgilərlə verildiyindən onu identifikasiya etmək olmur. Belə hallarda onları analoji formalı protoşumer piktoqramları ilə müqayisə etməklə mənasını açmağa çalışmışıq. Müqayisəli təhlilin nəticələri göstərir ki, hər iki yazı sistemində zahiri görünüşü üst-üstə düşən xeyli işarə mövcud idi. Bu ilk növbədə məişət və təsərrüfat əşyalarını təsvir edən işarələrdə özünü biruzə verir. Görünür bu əşyalar hər iki xalqın dilində eyni cür səslənirdi və ya biri digərindən mənimsəmişdir. Şumer yazı sisteminin təsirini təsərrüfat hesabatlarının xarakterini bildirən terminlərin yazılışında da görmək olar. Onlar amonim sözləri ifadə edən rebus işarələrlə yazılırdı. İşarələrin fonetik (hecalı) oxunuşu akrofoniya prinsipinə əsaslanır. Bu prinsipin tətbiqi zamanı işarənin təsvir etdiyi predmetin adının ilk hecası saxlanılır, sonluğu isə atılırdı. Məsələn, MARRİŠ «su qabı» > ma-; SİP «qapı» > si və s.

Fonetik işarələrin müəyyənləşdirilməsi istiqamətində aparılan araşdırmalar nəticəsində piktoqrafik mətnlərdə xeyli sayda coğrafi və şəxs adlarının, təsərrüfat və sosial terminlərin fonetik yazılışlarını üzə çıxarmaq mümkün oldu. Araşdırmalar nəticəsində məzmunu qaranlıq qalan və bəzi hallarda səhv oxunan xətti mətnlərin məzmununu anlamağa nail olunub. Dissertasiyada xətti işarələrlə yazılmış 2 mətnin oxunuşuna təşəbbüs göstərilmiş və bəzi mətnlərin çətin anlaşılan ifadələrinə və işarə birləşmələrinə yeni izahlar verilmişdir.

Araşdırmalar nəticəsində aydın oldu ki, piktoqrafik mətnlərin birində «hökmdar Mesiri» xatırlanır. Ehtimal ki, o, Şumerin Kiş şəhərinin

hökmdarı Mesilim ilə eyniləşdirilməlidir. «K» xətti mətninin tədqiqatı göstərdi ki, Simaşki vilayəti işğal olunduqdan sonra onun hökmdarı Kima devrilmiş və yerinə Kutik/Puzur-İnşuşinak atası Şimbiişhuku təyin etmişdir. Bu fakt qismən Puzur-İnşuşinakın akkaddilli mətni ilə təsdiqlənir. Xətti işarələrlə yazılmış «N» mətnində isə Simaşkidə elammənşəli sülalənin əsasını qoyan Qirnamenin xatırlanması faktı onu deməyə əsas verir ki, xətti yazı sisteminin tətbiqi V.Hinsin söylədiyi kimi Kutik-İnşuşinakla bitməmişdir.

Piktoqrafik mətnli lövhəciklərin Suzdan xeyli kənarda aşkarlanması Elamın qonşu ərazilərlə olan iqtisadi-mədəni əlaqələrindən xəbər verir. 80-ə yaxın lövhəciyin qədim Azərbaycan sakinləri olan qutilərin məskunlaşdığı ərazilərdə (Sialk, Qodin, Özbəki, Sofalin) tapılması böyük maraq doğurur.

Min illik istifadədən sonra Protoelam yazı sistemi e.ə. III minilliyin sonunda yox olur, Hindistanda isə Mohenco-Daro mədəniyyəti çiçəklənmə-yə başlayır. Maraqlıdır ki, 80-dən artıq protoelam işarəsinə protohind yazı sistemində təsadüf olunur. Bu fakt Hindistanın dravid dilləri ilə elam dili arasındakı genetik qohumluq nəzəriyyəsini təsdiqləyən tutarlı dəlil sayıla bilər.

Dissertasiya işinin sonunda tədqiqatın nəticələrini əks etdirən 36 cədvəl verilmişdir. Bu cədvəllərdə şumer-akkad mətnlərində təsadüf olunan 170 şəxs və 50-dən artıq coğrafi adlar (1 və 2 saylı cədvəllər), Elam piktoqramlarının protoşumer və protohind işarələri ilə müqayisəsi (3 və 4 saylı cədvəllər), protoelam işarələrinin semantik mənalara müvafiq təsnifatı (5-26 saylı cədvəllər), heca və sözlərin qrafik ifadələri (27-36 saylı cədvəllər) əks olunmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Отражение ранних контактов Урука с Эламом в историко-эпической традиции шумеров. // Известия Академии Наук Азербайджана. Серия история, философия и права. Баку, 1992, №3-4, с.92-98. (Həmmüəllif – Y.Yusifov).
2. К расшифровке знаков-цифр протоэламского письма. // Вестник древней истории. Москва, 1993, №3, с. 3-20. (Həmmüəllif – Y.Yusifov).
3. Направления письма в пиктографических табличках Элама. // Azərbaycan Arxeologiyası. Bakı. 2001, s. 82-86. (Həmmüəllif – Y.Yusifov).
4. К наименованию страны Элам. // Tarix və onun problemləri, Bakı. 2005, №4, с. 230-233.
5. Месилим – царь Киша. // Азербайджан и азербайджанцы. Баку, 2010, №1-2, с. 139-142.
6. Эламский город URU x A = Хухнур. // Труды Института Истории НАН Азербайджана. Баку, 2010, Том 32, с. 3-9.
7. К расшифровке знаков-сосудов протоэламской письменности. // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı, 2010, №2, с. 35-40.
8. Борьба царей Кутиума за власть (К новой интерпретации старых источников. // Азербайджан и азербайджанцы. Баку, 2011, №1-2, с. 119-128.
9. Erkən Elam cəmiyyəti: siyasi-iqtisadi münasibətlər və yazı tarixi (e.ə. IV-III minilliklər). Bakı, Şərq-Qərb, 2011, 264 s.
10. О первых царях Кутиума. // Азербайджан и азербайджанцы. Баку, 2012, № 1-2, с. 49-54.
11. Anubanini. // Azərbaycan Arxeologiyası və etnoqrafiyası. Bakı, 2012, №1,s. 98-103.
12. Su tayfaları–Simaşki ölkəsinin sakinləri./ Azərbaycan Şərqşünaslıq elminin inkişaf yolları. Akademik Vasim Məmmədəliyevin anadan olmasının 70 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materiallları. Bakı, 27-28 iyun 2013-cü il, s. 627-628.
13. Из ранней истории Аванской династии Элама.// Кавказ и Мир. Международный научный журнал. Тбилиси, 2013, №16,с. 54-57.

**А.Н.Алимирзоев**

**Раннеэламское общество в пиктографических текстах**
(III тыс. до н.э.)

**РЕЗЮМЕ**

Диссертация посвящена изучению политической, социально - экономической истории раннего Элама и развития его древнейшей письменности.

Диссертация состоит из введения, четырех глав, заключения, списка литературы и более 30 таблиц, отражающих результаты исследования по дешифровке протоэламской письменности.

Во введении обосновывается актуальность темы, анализируется степень ее изученности, определяются цели и задачи исследования, показывается научная новизна, а также раскрывается теоретическое и практическое значение темы.

Первая глава диссертации посвящена проблемам древних поселений и первых государственных образований. Рассматриваются также вопросы исторической географии и этногенеза Элама.

Во второй главе затрагиваются проблемы фиксирования политического и административного управления в раннем Эламе. Первый раздел этой главы посвящен вопросам государственного строя. Второй раздел посвящён проблемам общественно-политических отношений и социальной структуры раннеэламского общества. В третьем разделе исследуются особенности операций по отчетности. Далее говорится о цифрах, системах меры и стандартных единицах. В последнем разделе ставится вопрос об экономических и культурных связях раннего Элама с соседними странами.

В третей главе рассматриваются проблемы хозяйственной деятельности в раннем Эламе. На основе полученных результатов по дешифровке протоэламских пиктографических текстов затронуты вопросы земледелия, скотоводства и ремесла. Далее речь идет о формах оплаты труда нанимаемых работников.

Четвертая глава диссертации посвящена насущным вопросам развития эламской пиктографии – переходу от идеографических оборотов письма при помощи идеограмм к слоговым написаниям. Исследуются слоговые комплексы, передающие личные имена и топонимов.

В заключении подводятся общие итоги исследования. Диссертационная работа завершается 36 таблицами, отражающими результаты исследований по определению семантики и значения знаков.

**A.N.Alimirzayev**

## The Early Elamite society in the pictographic texts (III millennium B.C.)

## SUMMARY

The dissertation work deals with the study of political, socio-economic history of Early Elam and development its early writing.

The dissertation work covers the introduction, four chapters, the conclusion, lists of literature and more than 30 tables reflecting the results of the research on decipherment of the protoelamian writing.

In the introduction is grounded the actuality of the theme; analyzed the degree of the studying, defined aims and problems of the research, shown the scientific novelty and opened the theoretical and practical significance of the theme.

Chapter I is devoted to the problems of the ancient settlements and maiden state unions. As well as considered the questions on historical geographical and ethno genesis of the Elam.

Chapter II deals with the problems of fixing politico-administrational management in the Elam. The first subsection of the chapter is devoted to the issue of the political system. The second subsection is devoted to the issue of socio-political relations and social structure of the society. In the third subsection is interpreted the peculiarities of the operations on accounts. Further is spoken about the figures, measuring systems and standard units. In the last subsection is raised a question on economic and cultural relations with neighboring territories.

Chapter III covers the problems on economic activity in Elam. On bases of achieved results, on the deciphering the protoelamian pictographic texts the questions of agriculture, cattle-breeding and trade are touched. Further is spoken about the forms of payment of the hired laborers.

Chapter IV is devoted to the urgent questions of development of the Elamian pictography – transfer from the ideographical turnover of writing with the help of ideograms to syllabic writing. The syllabic complexes giving names and toponym are researched.

In the conclusion are summarized the results of the research. The dissertation work ends with 36 tables reflecting the results of the research on the determination of semantics and the sense of signs.

Formatı: 60x84 $^{1}/_{16}$. F.ç.v. 1,75.
Tiraj 100 nüsxə.

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**АЛИМИРЗОЕВ АЛЛАХВЕРДИ НУСИ оглу**

# РАННЕЭЛАМСКОЕ ОБЩЕСТВО В ПИКТОГРАФИЧЕСКИХ ТЕКСТАХ (III тыс. до н.э.)

**Специальность: 55 03.01 – Всеобщая история**
**Специальность: 55 05.01 – Археология**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**BAKI-2013**